# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

Müstəqil ictimai-siyasi, publisistik qəzet №34 (1290) 25 noyabr 2025-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# İsmayıl KAZIMOV - 70

# DİLİN VƏ SÖZÜN İŞIĞINDA

## FOLKLOR TÜRKÜN MİLLİ MƏDƏNİ İRSİ KİMİ



AZƏRTAC türk xalqların folkloru, adət-ənənələri və mədəni irsinə həsr olunan silsilə yazıları davam etdirir. AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin müdiri filologiya elmləri doktoru, professor İsmayıl Kazımov AZƏRTAC-a açıqlamasında türk folklor irsindən bəhs edib. Onun fikirlərini oxucularımızla bölüşürük.

İrs kəlməsi ərəb mənşəlidir. Əvvəlki dövrlərdən, yüzilliklərdən, böyük şəxsiyyətlərdən qalmış mədəniyyət əsərlərinə də deyilir. Mədəni irs dedikdə, eyni zamanda, mədəniyyət, dəyərlər və adət-ənənələrdən bəhs edilir. Türk xalqlarının milli-mədəni irsi içərisində folklor örnəkləri aparıcı yer tutur. Bu irs kollektiv zəhmətin məhsulu kimi ortaya çıxmış incidir, xəzinədir. Bu yaradıcılıq onların təşəbbüskarlığını, novatorluğu, gələcək ideallari və həyata nikbin münasibətlərini ifadə edir.

Nəsillərin yaddaşı türklərin folklor mədəniyyəti ilə də köklənir. Bizə elə gəlir ki, folklor canlı bir tarixdir, muzeydir. Bu tarix içərisində tükün dili, ilk nitq örnəkləri gizlənib:

Tokuş içre uruştım
Uluğ birle karıştım
Töküz atın yarıştım
Aydım: Emdi al Utar

Bu, "Alp-ər Tunğa" dastanından bir parçadır.

Müasir mənası: Savaş içində vuruşdum. Ulularla (böyüklərlə) bir oldum. Töküz (yaxşı qaçan at) at ilə yarışdım. Dedim al Utar (ad)

Folklor türk etnoslarının tarixən həyat eşqi, dünyagörüşü, mənəviyyatı olub. Ümumtürk mədəniyyətimizin bir qolu olan bu irsdə onların əyilməz ruhu, bitib-tükənməyən daxili enerjisi cəmlənib. Qüdrətli bir həyat eşqinin müdrik toplusu olan türk folklor irsində onların keşməkeşli tarixi, coğrafiyası ilə bir vaxtda formalaşıb, zaman-zaman, qətrə-qətrə zənginləşib və püxtələşib. Zamanın çətin və mürəkkəb sınağından çıxmış bu dəyərli irsdə - əski sözlərdə, manilərdə, bayatılarda, türkülərdə, şarkılarda, fıkralarda (lətifələrdə), məsəllərdə (nağıllarda), dastanlarda, aşıq yaradıcılığında və s. xalq taleyin amansız hökmünə qarşı özünün daxili əzablarını, duyğularını ifadə etmişdir: Qızım seni beşiginde tanurum. Oğlun merdligi elin dar gününde tanınar...

Sürgün olunmuş türklərin ən böyük dərdi Vətəndir. Vətən əl çatmayan bir varlıq, obrazlı şəkildə kiçildilmiş bir gözəl qızın yanağındakı qara bir xal:

Bir gözəlin yanağında,
Bir qaraca xaldur Vətən
Bin bir çiçəkdən yapılmış
Bir yapus xas baldur Vətən...

Folklor irsində illərlə vətənsizliyin, sürgünlərin qəhrindən olmazın zülmlər görmüş, müsibətlər çəkmiş qərib soydaşlarımızın Vətən həsrəti, torpaq nisgili böyük ümidlərlə yada salınır:

Vətən deyib ağladım,
Yürəgimi dağladım.
Dedilər, yol açılır,
Ümidə bel bağladım.

Bu və ya digər şifahi xalq örnəkləri türkün yüzilliklər boyu nəsildən-nəslə ötürülən irsidir, milli sərvətidir. Bunlar nəsillər arasında əlaqə, bağ yaradır.

Bəli, türk bu gün də öz mədəni irsini qoruyur. Ona görə ki, həmin irs türkün tarixidir, etnogenezidir, mədəniyyətidir, adət-ənənəsidir, özünəməxsusluğudur.

Bu irsi qoruyub gələcək nəsillərə çatdırmaqla biz qürur duyuruq.

*Bakı, 20 noyabr, AZƏRTAC*




***TÜRK dünyası dil, kültür və sənətində gördüyü işlərə görə İsmayıl Kazımov TÜRKSOYUN Molla Pənah Vaqif qızıl medalına layiq görülür. 2025 Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi münasibəti ilə.***